ədalət.- 2020.- 7 noyabr.- S.15.



Bəhram Fərmanzadə

## Vətən

*Arada ayrılıq, iki yüz ildi,*
*Qardaşın-qardaşdan əli üzüldü.*
*Hicran göz yaşına dönüb süzüldü,*
*İradə, mətanət dözümsən, Vətən!*

*Sərhəd məftilindən tikandı yaxan*
*Sinəmdə qıvrılıb Arazsan axan.*
*Bu taydan o taya həsrətlə baxan,*
*Vüsalın gözləyən gözümsən,Vətən!*

*Ömür tək əriyən yolumda şamsan,*
*Muraza can atan arzusan, kamsan,*
*Nağıllı gecəsən, qərib axşamsan,*
*Mən sənin, sən mənim özümsən,Vətən!*

## Türk övladının şərqisi

*Dərd içimdə burum-burum eşildi,*
*Sinəm yandı, bağrım başı deşildi.*
*Torpağına qan tökülür beş ildi,*
*Silahını yerə qoyma ayıq ol*
*Türk övladı döyüşlərdə sayıq ol!*

*Düşmənimiz hiyləgərdi, yağıdı,*
*Şuşa, Laçın sinəmizin dağıdı*
*Qalx ayağa indi qeyrət çağıdı,*
*Silahını yerə qoyma ayıq ol*
*Türk övladı döyüşlərdə sayıq ol!*

*Vətənimin bar-bəhrəli düzü var,*
*Torpağımda xain, iblis gözü var.*
*Erməninin min sifəti, üzü var,*
*Silahını yerə qoyma ayıq ol*
*Türk övladı döyüşlərdə sayıq ol!*

*Qara geydim qara Yanvar günündə,*
*Ərşə çatdı qardaş səsin, ünündə,*
*Borcumuz çox hələ Vətən önündə,*
*Silahını yerə qoyma ayıq ol*
*Türk övladı döyüşlərdə sayıq ol!*

*Dəryalarda üzən tənha gəmi var,*
*Bu dünyanın həm sevinci, qəmi var,*
*Türkdən başqa türkün özgə kimi var,*
*Silahını yerə qoyma ayıq ol*
*Türk övladı döyüşlərdə sayıq ol!*

*Türk övladı künc bucağa qısılmaz,*
*Türk əsgəri ayağından asılmaz,*
*Türk Ordusu  zəfər çalar, basılmaz,*
*Silahını yerə qoyma ayıq ol*
*Türk övladı döyüşlərdə sayıq ol!*

## Azərbaycan əsgəri!

*Göstəribdi qeyrətin*
*Yollar keçibdir çətin,*
*Olub mübariz,mətin,*
*Dayağıdı millətin.*
*Azərbaycan əsgəri!*

*El yolunda qanımı*
*Axıdar Həzi kimi.*
*Qurban verər canını*
*Poladın özü kimi*
*Azərbaycan əsgəri!*

*Qələbəyə qayıdar*
*Hər döyüşdən, səfərdən,*
*Hörər şöhrət çələngi*
*Hər uğurlu zəfərdən*
*Azərbaycan əsgəri!*

*Uludan olub ulu,*
*Zəfər qələbə yolu.*
*Hər günü hünər dolu.*
*Döyüşdə qoç Koroğlu*
*Azərbaycan əsgəri!*

*İlhamdan ilham alıb,*
*Qurana əl basacaq.*
*Üç rəngli bayrağımı*
*Şuşada asacaq*
*Azərbaycan əsgəri!*

## Qələbə himnini Şuşada çaldır

*Vətənin bir qarış*
*Torpağı paysa,*
*Çadırda yatanlar,*
*Ciyər-paramdı.*
*Sənin yaşadığın*
*Büllur saraysa,*
*Udduğun hava da*
*sənə haramdı.*

*Təpər ürəyində,*
*Qüvvət qolunda,*
*Sönmüş ocaq üçün*
*Kötük tək yarıl.*
*Bu torpaq uğrunda,*
*Vətən yolunda*
*Gedən döyüşlərdə*
*Silaha sarıl.*

*Bu torpaq uğrunda*
*Canından keçən,*
*Dayan sırasında*
*Mübarizlərin.*
*Öpüb bayrağımı,*
*Öpüb and içən*
*Qoru Şəhidlərin*
*Ayaq izlərin.*

*Qartal tək qanad çal,*
*Zirvə başında.*
*Vətənin üç rəngli*
*Bayrağın qaldır*
*Saxla əmanət tək*
*Qan yaddaşında,*
*Qələbə himnini*
*Şuşada çaldır!*

## Çıxacaq ağ günə Azərbaycanım!

*Qoyduğu bünövrə, hər təməliylə,*
*Xeyirxah işiylə, düz əməliylə,*
*Şeytan fitnəsiylə, düşmən əliylə,*
*Düşməsin düyünə Azərbaycanım!*

*Millətim çatdıqca arzuya, kama,*
*Könül Pərvanətək alışar şama.*
*Rəssam vəcdə gələr, şair ilhama*
*Haqqı var öyünə Azərbaycanım!*

*Qaytarıb yurduna, elin, obasın,*
*Dərib Kəlbəcərdən çiçək topasın,*
*Qələbə günündə bayram libasın,*
*Şuşada geyinə Azərbaycanım!*

*Şoran torpaqlarda bağlar salacaq,*
*Millətim qələbə, zəfər çalacaq,*
*Baxıb İlhamına ilham alacaq,*
*Çıxacaq ağ günə Azərbaycanım!*